BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2015

UOT 94(479.24)

# MÜASİR MƏRHƏLƏDƏ DAXİLİ ETNİK KONFLİKTLƏRİN REGİONAL DİNAMİKASININ MÜQAYİSƏLİ TƏHLİLİ

**A.S.MƏMMƏDOV**
***Azərbaycan Milli Elmlər Akademiyası***
***adish_mamedov@mail.ru***

*Məqalədə müasir mərhələdə daxili etnik konfliktlərin regional dinamikası müqayisəli şəkildə araşdırılır. Göstərilir ki, müasir etnik münaqişələr yer üzündə qeyri-sabitliyin aparıcı amillərindən birinə çevrilmişdir. Onlar daha mürəkkəb, dolaşıq, üzücü və çətin həll olunan münaqişələrə aiddir. İstər Qafqaz regionu, istər Balkan regionu, istərsə də Yaxın Şərq regionu üzrə daxili etnik münaqişələrin müqayisəli araşdırılması göstərir ki, bu tipli münaqişələr əvvəla dövlətin zəifləməsinə gətirib çıxarır. Gərginliyi etibarilə ölkə sərhədlərini aşaraq qonşu dövlətləri daim təhdid edir, regional sülh və təhlükəsizliyə zərbə vurur. Müqayisəli araşdırmalar həm onu göstərir ki, bəhs olunan regionlar üzrə etnik münaqişələr özünün inkişafı prosesində bir sıra fəsadlara yol açmışdır. Belə fəsadlar sırasında daxili etnik münaqişənin alovlandığı ölkə vətəndaşlarının təqib, qırğın, müharibə təhlükəsindən qaçaraq qonşu dövlətlərə kütləvi axını, qaçqın problemləri, müharibənin özü ilə gətirdiyi iqtisadi problemlər xüsusilə qeyd olunmalıdır.*

**Açar sözlər:** daxili etnik konflikt, regional dinamika, müasir dövr, Yaxın Şərq, Qafqaz, Balkan

Müasir münaqişələr yer üzündə qeyri-sabitliyin aparıcı amillərindən birinə çevrilmişdir. Mənşəyinə və xarakterinə görə rəngarəng olan münaqişələr arasında etniklərarası və millətlərarası münaqişələr xüsusi yer tutur. Onlar daha mürəkkəb, dolaşıq, üzücü və çətin həll olunan münqaşilərə aiddir. Tarix göstərir ki, etniklərarası və millətlərarası kolliziyalar bir çox polietnik regionlarda miqyasına, davamlılığına və intensivliyinə görə sosial-siyasi münaqişələrin digər tiplərini üstələyir. Etnik münaqişələr digər sosial münaqişə növləri kimi müxtəlif təkamül növlərinə malikdir. Etnik münaqişələr ən çətin nizamlanan münaqişələrdən biridir. Bu münaqişələr bir qayda olaraq, çoxillik müqəddiməyə malik olur, sosial-iqtisadi, siyasi, ictimai-mədəni və etnopsixoloji problemlər kompleksi ilə şərtlənir. Bu halda daxili etnik konfliktlər öz təbiəti etibarilə çox zaman ölkə sərhədlərini aşaraq, regional dövlətləri də təhdid edir.

**Daxili etnik münaqişələrin siyasi və iqtisadi təsirləri**

Daxili siyasi münaqişələrin böyük əksəriyyəti etnosların status uğrunda mübarizələri ilə bağlı olur. Hər bir etnos da hesab edir ki, məhz siyasi hakimiyyətdə təmsil olunmaqla və ya hakimiyyətə hər hansı təsir vasitələrinə malik olmaqla maraqlarını təmin edə bilərlər. Əksər hallarda isə etnoslar çıxış yolunu birmənalı şəkildə "mərkəzdən qopmaqla" "suverenlik" əldə etməkdə görürlər. Sözsüz ki, belə suverenlik adətən bütövlükdə etnosun maraqlarına xidmət etmir. Tarixi müşahidələr göstərir ki, qeyd olunan suverenlik müəyyən bir qrupun hakimiyyətə yiyələnməsinə daha çox yarayır. Etnosların suverenlik uğrundakı mübarizələrinin əsasını bir qayda olaraq separatçı hərəkatlar təşkil edir [9, 57-58]. Göründüyü kimi, münaqişə siyasi sistemin bu cür gərgin daxili və xarici şərtlər daxilində fəaliyyət göstərməsinə səbəb olur. Belə bir vəziyyətdə isə siyasi sistem nəinki zəifləyir, hətta onun tamamilə dağılması da baş verir, tez bir zamanda ölkə sərhədlərini də aşır.

Dövlətlərarası müharibədə olduğu kimi, xüsusilə soyuq müharibə başa çatdıqdan sonra yayılmış ağır və gözəçarpan beynəlxalq və vətəndaş qarşıdurmasının bir növü hesab edilən etnik münaqişələrə müxtəlif faktorlar zəmin yaradır. Etnik münaqişələr dünyanın müxtəlif guşələrində yerləşən bir sıra ölkələrin ərazi bütövlüyünə və hətta onların mövcudluğuna təhlükədir. Təbii ki, Sovet İttifaqının dağılmasına aparan prosesdə etnik münaqişələrin rolu aydın görünürdü. Bəziləri qeyd edir ki, Kvebekdəki fransız separatçıları, İspaniyadakı basklar və ya Azərbaycandakı erməni separatçıları bu ölkələrin dağılması ilə nəticələnə biləcək zəncirvarı reaksiyaya səbəb ola bilərlər. Yuqoslaviyada baş vermiş ən böyük və acınacaqlı hadisələr haqqında xəbərlərin başlıqlarını tutan etnik münaqişədən fərqli olaraq, Ruandada və Azərbaycanın Qarabağ və onun ətraf rayonlarında münaqişə görünməmiş miqyasda intişar etdi və soyqırımla nəticələndi.

Etnik münaqişələr həmçinin ona görə beynəlxalq səviyyəyə çıxır ki, münaqişə beynəlxalq ictimaiyyətin digər üzvlərinin iqtisadi, təhlükəsizlik və siyasi maraqlarına təsir göstərir və ya onlara humanitar məqsədlərə görə müdaxilə etmək tələb olunur. Bir çox hallarda etnik azlıqların ayrı-seçkiliyə məruz qalması, dövlət sərhədlərinin etnik qrupların həqiqi məskunlaşma arealı ilə nadir hallarda üst-üstə düşməsi etnik münaqişələri virtual epidemiyaya çevirmişdir.

Son onilliklər ərzində ümumi qaydada hesab edilirdi ki, etnik münaqişə, əsasən, zorakılığa səbəb olur, çünki beynəlxalq ikiqütblü sistemin strukturu əsas dövlətlər arasında münaqişəyə qadağa qoymuşdur. Lakin bu, onun digər üzvlərinə şamil edilmir. Başqa sözlə, soyuq müharibə zamanı bir çox hallarda belə görünürdü ki, super güclər arasında mövcud olan antaqonizm etnik münaqişələri daha da sərtləşdirirdi. Məsələn, Anqolada Birləşmiş Ştatlar və digər Qərb dövlətləri ölkənin cənub hissəsindəki Ovimbundu tayfasının sovetlərin dəstəyini alan və hökumətə nəzarət edən Mbundu koalisiyasına qarşı apardığı mübarizədə birincinin tərəfində idi. Nəticədə, ölkədəki vətəndaş müharibəsi illər boyu davam etdi. Bu, onunla izah edilir ki, soyuq müharibə zamanı belə

hallarda super güclər elə bir beynəlxalq nizam qurmağa çalışırdılar ki, müttəfiqlərin və ticarət tərəfdaşlarının sayı və imkanları maksimal dərəcədə artsın, xüsusən də üçüncü dünya ölkələri arasında etnik hərəkatlar çoxalsın və genişlənsin. Daxili etnik münaqişələrə kənar resursların daxil edilməsi daha böyük, mütəşəkkil və zorakı etnik hərəkatların yaranması ilə nəticələndi. Bunun fəsadları münaqişənin uzanması və ağırlaşması, bir çox hallarda vətəndaş müharibəsinə çevrilməsi və danışıqlar yolu ilə məsələnin həll olunma ehtimalının azalması ilə yadda qaldı [5, 103-112].

Lakin görünür ki, soyuq müharibənin başa çatması dünyadakı etnik mübarizə epidemiyasından tam qurtulmaq üçün çıxış yolu olmadı. Əksinə, soyuq müharibə və kommunizmin iflası Şərqi Avropa və keçmiş Sovet İttifaqında zorakı münaqişələri alovlandırdı. Bununla belə, super güclər arasında qlobal rəqabətin başa çatması əvvəllər məhz bu rəqabətin məhsulu sayılan bir çox münaqişələrə son qoymadı. Hal-hazırda biz görürük ki, hətta super güclərin dəstəyi olmadan etnik münaqişələr Anqola, Sudan, Əfqanıstan, Burundi, Birma, İraq, Suriya, Türkiyə və digər yerlərdə davam edir [5, 103-112]. Soyuq müharibə zamanı, ümumiyyətlə, hesab olunurdu ki, Birləşmiş Ştatlarla Sovet İttifaqı arasındakı qarşıdurma etnik münaqişələri daha da ağırlaşdırır.Soyuq müharibə artıq mövcud deyil. Lakin bizə yenə də deyilir ki, onun bitməsi etnik münaqişələri sərtləndirdi. Eyni zamanda, analitiklər müəyyən dərəcədə əmindirlər ki, iqtisadi tərəqqi və müasirləşmə etnik münaqişəni səngidəcək. Bununla belə, qlobal iqtisadi inteqrasiya yeni zirvələrə çatıb və görünür, bu proses etnik qruplar arasında mübarizənin intensivliyini daha da artırır.

Daxili etnik konfliktlərin regional dinamikası, fərqli cəhətlərə malik olmalarına baxmayaraq, digər sosial münaqişələrin regional dinamikası ilə eynilik təşkil edir. Yəni bütün digər münaqişələr kimi, daxili etnik münaqişələrin də inkişafı zaman və məkan müstəvisində dəyişir və bütün münaqişələr üçün universal olan inkişaf mərhələlərini keçir. Sadəcə siyasi və sosial-psixoloji xüsusiyyətlərindən asılı olaraq, müxtəlif münaqişələr bu inkişaf mərhələlərini fərqli templərlə keçirlər. Bu baxımdan, daxili etnik münaqişələrin inkişaf mərhələləri bir çox amillərdən asılı olur [1, 149]. Belə amillər içərisində ən vacibi kimi münaqişənin baş verdiyi konkret cəmiyyətin tarixi və siyasi-hüquqi mədəniyyətini göstərmək olar. Bundan başqa, determinant, şərait, zorakılıq, geosiyasi və s. amillər daxili etnik münaqişələrin alovlanması və genişlənməsinə əhəmiyyətli təsir göstərirlər. Burada determinant amil dedikdə, daxili etnik münaqişənin səbəbini və təbiətini müəyyənləşdirən hallar nəzərdə tutulur. Şərait amili münaqişə qruplarının formalaşmasına təsir edən elementləri özündə əks etdirir. Zorakılıq amili də münaqişənin inkişaf dinamikasına əhəmiyyətli təsir edən amillərdəndir.

**Daxili etnik konfliktlər sülh və təhlükəsizliyi təhdid edən amil kimi**

Bəs daxili etnik münaqişənin təsiri altında siyasi sistemin zəifləməsi regional münasibətlərə necə təsir edir? Biz bunun əyani nümunələrini regional sülh və təhlükəsizliyə ciddi təhlükə olan bir çox daxili etnik münaqişələrin

fonunda daha aydın görə bilərik.

Daxili etnik konfliktlərin regional dinamikasından danışarkən, regional dövlətlərin intervensiya (müdaxilə) motivlərinin fərqləndirilməsi olduqca vacib nüansdır. Belə ki, bu halda xeyirli niyyətlə edilən müdaxilə, humanitar əzab-əziyyətlərin azaldılması və yüngülləşdirilməsi, regional sülh və təhlükəsizliyin bərpası, eləcə də müdafiə xarakterli və milli təhlükəsizliyin qorunmasına xidmət edən intervensiya əsas kateqoriyalar kimi diqqəti cəlb edir.

Ümumi qloballaşma dövründə müasir silahlı münaqişələrin cizgilərinin bütün sistemlərə təsiri daha çox narahatlıq doğuran məsələ hesab edilir. Əksər daxili münaqişələr bu və ya digər formada qonşu dövlətlərə təsir göstərir, bu təsirlə əlaqədar qonşu dövləti müvafıq addımlara sövq edir, praktiki olaraq, daim regional sabitliyi təhdid edir. Paralel olaraq, kommunikasiyanın inkişafı, kütləvi informasiya vasitələrinin qloballaşması etnosların qapalılığını dağıdır, onların qarşılıqlı təsir və qarşılıqlı asılılıq sferasını genişləndirir, nəticədə etnik amilin hakimiyyət uğrunda mübarizədə real vasitəyə çevrilməsinə zəmin yaradır. Məhz bu səbəbdən daxili etnik münaqişələr həm də regional sülh və təhlükəsizliyi daim təhdid edir.

Mühakimələrimizi müasir mərhələdə etnik münaqişələrin daha geniş vüsət aldığı Yaxın Şərq, Cənubi Qafqaz, eləcə də Avropanın bir çox bölgələri üzrə davam etdirsək, daxili etnik münaqişələrin yaratmış olduğu fəlakətli vəziyyət bir daha aydın olar.

XXI əsrin əvvəllərində etnosiyasi münaqişələr bəzi coğrafi regionlarda daha çox diqqəti cəlb etməkdədir. Çoxsaylı silahlı qarşıdurmalar Yaxın və Orta Şərq regionunda, SSRİ-nin süqutundan sonra Şimali və Cənubi Qafqaz regionunda, Cənub-Şərqi Asiyada, Mərkəzi Afrikada özünə yer eləyib. Xüsusilə Mərkəzi Afrika bölgəsində ümumi aclıq, yoxsulluq, dağılmış infrastruktur, texnika çatışmazlığı, sənayeləşmənin olmaması və zəif hökumət administrasiyası bu ölkələrdə silahlı münaqişələri kifayət qədər effektli idarə etməyə və nizamlamağa imkan vermir, öz növbəsində humanitar böhranların yaranması imkanlarını artırır [3, 14-15].

Yaxın və Orta Şərqdə 50 ildən çoxdur ki, ciddi siyasi və hərbi təlatümlər baş verməkdədir. Məhz son bir neçə ildə "Ərəb Baharı" adlanan prosesin başlaması da regionun özünəməxsusluğunu göstərir. Əlbəttə ki, buraya tarixi İsrail-Fələstin problemini, son illərdə ABŞ və müttəfiqləri tərəfindən İraqın işğalını və Suriya problemini də əlavə etmiş olsaq, problemin dinamikasını daha aydın şəkildə canlandırmış olarıq. Belə ki, "Ərəb Baharı" ilə dəyişən Şimali Afrika, Orta Şərqdəki siyasi balans və Fələstinin BMT-yə və beynəlxalq cəmiyyətə "üzv olmayan müşahidəçi dövlət" statusu ilə qoşulma yolunun açılması, vəziyyəti daha da dəyişmişdir.

XXI əsrin astanasında Yaxın və Orta Şərq regionunda daxili etnik münaqişələr ABŞ-da 11 sentyabr terror aktlarından sonra yenidən "gündəmə gəlmişdir." Prezident C.Buş (oğul) terrorçuların ABŞ-a olan hücumunu "XXI əsrin ilk müharibəsi" kimi xarakterizə edərək bildirmişdir ki, "radikal terror-

çular şəbəkəsi və onları müdafiə edən hər bir hökumət bizim düşmənimizdir [15].” Onun fikrincə, yeni müharibə 1991-ci ildə İraqa qarşı, 1999-cu ildə Yuqoslaviyaya qarşı aparılmış müharibələrdən fərqlənəcəkdir: “Qlobal terrorçu şəbəkəni dağıtmaq və məhv etmək üçün biz bütün resurslardan, diplomatiyanın bütün vasitələrindən, kəşfiyyatın bütün üsullarından, bütün maliyyə imkanlarından və müharibənin bütün zəruri vasitələrindən istifadə edəcəyik...” [15]. Məlumatlardan belə nəticə çıxır ki, “terrorçu şəbəkələri”nin əsas yuvaları Yaxın Şərq bölgəsidir və regional sülh və təhlükəsizliyin bərpası, eləcə də milli təhlükəsizliyin “qorunması” üçün müharibə elementi qaçılmazdır.

Yaxın Şərqdə baş verən hadisələrin səbəblərinin və mahiyyətinin araşdırılmasına keçməmişdən öncə, ilk növbədə, hadisələrin xarakterini araşdıraq. Belə ki, bir çox elmi və ictimai-siyasi mənbələrdə Yaxın Şərqdəki hadisələr inqilab kimi müəyyən edilir. Lakin ərəb dövlətlərində baş verən xalq etirazlarını klassik inqilablardan (Fransa, Rusiya, Kuba, Çin və s.) fərqləndirən ən əsas amillərdən biri inqilablar üçün xarakterik olan subyektin və irimiqyaslı məqsədlərin olmamasıdır. Digər bir vacib amil inqilabların ictimai münasibətlərin sistemində və yaxud siyasi sistemin xarakterində kardinal dəyişikliklərə yol açmasıdır. Lakin nə Misirdə, nə də xalq üsyanları olan digər ərəb dövlətlərində prosesin başa çatmaması, yəni nəticələrin məlum olmaması indiyə qədər baş verən hadisələri inqilab adlandırmağa əsas vermir. Başqa sözlə ifadə etsək, inqilab keyfiyyət dəyişikliyinə yol açır, bu tip dəyişiklikləri isə hələlik nə İraqda, nə Suriyada, nə Tunisdə, nə də Liviyada müşahidə etmək olur. Suriya istisna olmaqla, bu dövlətlərdə yalnız prezidentlər devrilmiş, onların qurduqları siyasi sistem isə hələlik qorunub saxlanmışdır. Suriya və İraqda qanlı toqquşmalar isə artıq radikal sünni-şiə qarşıdurması fonunda dini çalar kəsb etməyə başlamış, daxili etnik gərginlik ən pik həddə qədər yüksəlmişdir.

Ümumiyyətlə, Misir, Suriya və İraqda da baş verən ciddi siyasi və hərbi çaxnaşmalar bir çox aspektdən təhlil edilməlidir. Qeyd etmək lazımdır ki, İraqda mərkəzi Bağdad hökuməti ilə Şimali Kürdüstan Əyaləti arasında konfliktlər mövcuddur. Nəticədə İraq Ərəb, Türkmən və Kürd etnik kimliyi ilə mozaik bir mahiyyət daşıyır. Bütün bunları nəzərə almadan İraqdakı siyasi gedişləri anlamaq mümkün deyil. Belə ki, Beynəlxalq Enerji Agentliyinin hesabatına görə İraq gələcək 10 il içində neftdən gələn gəlir ilə ildə 200 milyard dollar qazanacaqdır [18, 1-3]. Bax bu aspektdən də mərkəzi Bağdad höküməti, hakimiyyət mənim əlimdə deyərək Şimali Kürdistan Muxtar əyalətinin neft müqavilələrində tək başına hərəkət etməsinə qarşıdır. Digər tərəfdən, Yaxın Şərqdə siyasi böhranların və etnik gərginliklərin səbəblərini araşdırarkən, ilk növbədə mövcud elmi araşdırmalarda qarşılaşdığımız bir sıra amilləri nəzərdən keçirək. Ərəb üsyanlarının səbəbləri kimi göstərilən iqtisadi durğunluq, korrupsiya, işsizlik, sosial qeyri-bərabərlik, yoxsulluq kimi amillərin araşdırılması onların baş verən hadisələri izah etmək üçün yetərli olmadığı məlum olur. Belə ki, Misirdə Mübarəkin hakimiyyəti illərində ölkə iqtisadiyyatı artan xətt üzrə inkişaf etmişdir. Mübarəkin hakimiyyətinin son illərində, 2004-cü ildə

formalaşdırılan islahata meyilli hökumətin həyata keçirdiyi tədbirlər nəticəsində hətta dünya iqtisadi böhranı zamanı da bu inkişaf tempi davam etmişdir. Böhran zamanı Misirdə ümumi daxili məhsulun illik artımı 4,6 faiz təşkil etmişdir [17] ki, bu rəqəm dünya üzrə ən yaxşı göstəricilərdən biridir. ÜDM-in adambaşına düşən həcmi isə 2010-cu ildə 5500 dollar olmuşdur. Oxşar inkişaf göstəriciləri Tunisdə və Liviyada da müşahidə olunur. Belə ki, Liviyada ÜDM-in adambaşına düşən həcmi 12 min dollara yaxın olmuşdur [16, 2]. Bu mənada təsvir olunan sosial-iqtisadi durumun təhlilini ümumiləşdirərək belə nəticəyə gəmək olar ki, dünya iqtisadi böhranının təsiri nəticəsində iqtisadi vəziyyəti həssas olan əhalinin daha da yoxsul vəziyyətə düşməsi etnik münasibətlərin gərginləşməsinin və bu gərginliyin nəticəsi kimi regional münasibətləri təhdid etməsinə gətirib çıxarmışdır.

Fikrimizcə, Yaxın Şərqdə baş verən hadisələrin ilk səbəbini geosiyasi amillərdə axtarmaq lazımdır. Əlbəttə ki, Yaxın Şərq həmişə geosiyasi cəhətdən mühüm region olmuşdur. Lakin beynəlxalq sistemin xarakterindən, sistemdə inkişaf edən proseslərdən, regional alt sistemdəki münasibətlərin xarakterindən, habelə regiondaxili inkişafın dinamikasından asılı olaraq, Yaxın Şərqin strateji önəmi təkamül etmişdir. Soyuq müharibə bitdikdən sonra formalaşan yeni sistemdə Yaxın Şərqin strateji önəminə təsir edən bir sıra mühüm hadisə, proses, təzahürlər meydana çıxmışdır.

Digər mühüm amil beynəlxalq münasibətlərdə islam amilinin xüsusi aktuallıq kəsb etməsi ilə bağlıdır. XX əsrin əvvəllərində 150-170 mln. insan islam dininə mənsub idi. Bu, o zaman dünyanın ümumi əhalisinin ondabiri idi. Müasir dünyada 1,5 mlrd. müsəlman yaşayır – bu, dünya əhalisinin dörddəbiridir [7, 10-16]. İran inqilabından (1979) sonra aktuallaşan islam amili müasir beynəlxalq münasibətlərdə önəmli rol oynayır. Qərbin siyasi-elmi mühitində Yaxın Şərq, həmçinin beynəlxalq terrorizmin qida mənbələrindən biri kimi təsnif olunur və bu baxımdan da həmin region beynəlxalq siyasi fəallığın xüsusi diqqət mərkəzinə keçmişdir. Nəhayət, daha bir amil Avropaya olan miqrasiyanın mühüm hissəsinin Yaxın Şərqdən olan müsəlman miqrantların təşkil etməsidir. Avropa İttifaqı daxilində islamın ideoloji və sosial-siyasi rolunun artması da Yaxın Şərqə diqqətin artırılmasını zəruri edirdi. Belə ki, Avropaya ən yaxın islam bölgəsi kimi Yaxın Şərqdə - xüsusilə Aralıq dənizinin cənub sahillərində siyasi və iqtisadi rifahın yaranması qabaqlayıcı tədbir kimi Afrikadan və Asiyanın digər hissələrindən Aİ-yə yönələn mənfi meyillərin və təsirlərin mühüm hissəsini bitərəfləşdirərək bufer zonaya çevrilə bilərdi.

Qeyd olunan amillərlə yanaşı, beynəlxalq sistemin strukturunu təşkil edən elementlərdə də mühüm irəliləyişlərin baş verməsi regiona olan baxışlarda və yanaşmalarda dəyişiklikləri şərtləndirmişdir. Avropa İttifaqında inteqrasiya prosesinin həlledici mərhələyə daxil olması və dünyada analoqu olmayan bir fövqəlqurumun formalaşması İttifaqın qonşuluğunda olan regionlara münasibətin dəyişməsini, daha sıx iqtisadi-siyasi əlaqələr qurmaqla bu ölkələrdə siyasi islahatların dəstəklənməsini və genişləndirilməsini tələb edirdi. Ətrafda qeyri-

demokratik və iqtisadi cəhətdən geri qalmış dövlətlərin mövcud olması Aİ-nin davamlı inkişafına təhlükələrin və təhdidlərin artmasına səbəb olurdu. Aİ tərəfindən 2003-cü ildə irəli sürülmüş Aralıq dənizində yerləşən ərəb dövlətlərinin də əhatə edildiyi Yeni Qonşuluq Siyasəti qarşıda duran problemin yumşaq güc vasitəsilə həll edilməsinə yönəlmiş konsepsiya idi. 2007-ci ildə Fransa prezidenti Sarkozinin irəli sürdüyü və Aralıq dənizinin ətrafında yerləşən dövlətlərin əməkdaşlığını nəzərdə tutan Aralıq dənizi ittifaqı layihəsi də eyni hədəfə - Şimali Afrika və Qərbi Asiyada yerləşən dövlətlərin Aİ-nin cənub dövlətləri ilə sıx əlaqələrini qurmaqla demokratik inkişafı dəstəkləməyə istiqamətlənmişdir [4, 45-61].

Deməli, Yaxın Şərqin ərəb dövlətlərində daxili etnik münaqişələrin alovlanması, regional və beynəlxalq aləmə təsirləri üçün olduqca ciddi əsaslar mövcuddur və proses davam etməkdədir. Sosial-siyasi və sosial-iqtisadi şərtlər uyğun olduqda "ovqat demokratiyası" adlandırdığımız proses hərəkətə başlayır: ilk öncə əhalinin kiçik qrupları etiraza başlayır, daha sonra bu qruplar tərəddüd edən və bitərəf insanları da öz arxasınca aparır və kütlə psixologiyası işə düşür; proses qarşısıalınmaz xarakter alır. Beləliklə, Yaxın Şərqdəki üsyanlar bir anda, qısa zaman hüdudunda baş verməmişdir.

Daxili etnik münaqişələrin inkişaf dinamikasının ikinci mərhələsində subyektlərin maraqlarındakı ziddiyyət artıq elə bir həddə çatır ki, onu müşahidə etməmək qeyri-mümkündür. Bu zaman daxili qarşıdurma tərəflərin normal qarşılıqlı fəaliyyətinə mane olan ciddi amilə çevrilir. Tərəflər də öz növbəsində aşkar qarşıdurma vəziyyətinə keçirlər. Məhz bu zaman münaqişə subyektlərinin praktik güc tətbiq etmələri qaçılmaz olur. Bir çox tədqiqatçılar belə hesab edir ki, münaqişənin inkişafının bu mərhələsində "zorakılıq" amilinə xüsusi diqqət yetirmək lazımdır [8, 36-45]. Qeyd etmək lazımdır ki, münaqişə zamanı gücün tətbiq edilməsi sərhədləri müəyyən məhdudiyyətlərin qoyulmasından tutmuş, kütləvi qırğın silahının istifadəsinədək dəyişə bilir. Bu mərhələdə zorakılıq yalnız silah tətbiqi ilə həyata keçirilmir, zorakı xarakter daşıyan digər vasitələrdən də istifadə edilir. Bu baxımdan mühakimələrimizi Yaxın Şərq, Cənub-Şərqi Asiya regionlarında zaman-zaman baş qaldıran daxili etnik münaqişələrin nümunəsində daha da möhkəmləndirə bilərik.

Bu gün Suriyada silahlı münaqişələrin başlamasından üç ildən artıq bir vaxt keçir. Aparılan araşdırmalar göstərir ki, 15 mart 2011-ci ildən Suriyada davam edən münaqişə milyondan çox suriyalını qaçqın salıb, 100 mindən çox insanın həyatına son qoyub, lakin münaqişəyə son qoymaq istəyən hələ də yoxdur. Londonun Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun "Hərbi balans – 2012" adlı illik hesabatında bildirilir ki, 2012-ci ildən Suriyada vəziyyət yavaş-yavaş üsyançıların xeyrinə dəyişməklə yanaşı, region dövlətləri üçün təhlükəli bir vəziyyət yaratmışdır [14, 12-14]. Məlumatların təhlilindən göründüyü kimi, Suriyada 2011-ci ildən başlanmış daxili gərginlik beynəlxalq miqyasda da ciddi narahatlıq predmetinə çevrilmişdir.

Daxili etnik konfliktlərin regional dinamikasının xarakterik cəhətlərindən

biri də münaqişənin əsas subyektlərindən başqa, əvvəldə də qeyd etdiyimiz kimi, digər dünya dövlətlərinin də prosesdə yaxından iştirak etməkdə maraqlı olmasındadır. Və belə olan halda dünya siyasi müstəvisində ümumi bir münaqişə zənciri yaranmış olur. Məsələn, biz bu dediklərimizi Balkan regionunda, Yaxın Şərq, Cənub-Şərqi Asiya, eləcə də MDB məkanının bir çox dövlətlərində müşahidə edə bilərik. Avropanın beş böyük yarımadasından biri olan Balkan yarımadası Mərkəzi Avropaya və Aralıq dənizinə qədər uzanan geostrateji mövqeyi ilə əsrlər boyu olduğu kimi bu gün də geosiyasi baxımdan beynəlxalq platformalarda əhəmiyyətini mühafizə etməkdədir. Avropanın geosiyasi mərkəzlərindən biri olması, Asiya və Afrikaya coğrafi yaxınlığı və Avropadan Orta Şərqin zəngin yeraltı ehtiyatlarına gedən tranzit yolların keçid nöqtəsində yerləşməsi regionun daima maraq mərkəzinə çevrilməsinə gətirib çıxarmışdır. Son illərdə Qərbi Balkan regionunda cərəyan edən proseslər, regionun geostrateji mövqeyi və Avropa məkanındakı geosiyasi roluna baxmayaraq, burada yeni iğtişaş və iqtisadi problemlərin davam etdiyini sübut edir.

Daxili etnik konfliktin regional dinamikası haqqında fikirlərimizi ümumiləşdirərək, bir daha qeyd etmək olar ki, daxili etnik münaqişələr əvvəla dövlətin zəifləməsinə gətirib çıxarır. Daxili etnik münaqişələrin nəticələri adətən cəmiyyətin bütün sahələrinə nüfuz edir. Gərginliyi etibarilə ölkə sərhədlərini aşaraq qonşu dövlətləri daim təhdid edir, regional sülh və təhlükəsizliyin bərpasında ciddi əngəllər törədir. Daxili etnik münaqişələr özünün inkişafı prosesində bir sıra fəsadlara yol açır. Belə fəsadlar sırasında daxili etnik münaqişənin alovlandığı ölkə vətəndaşlarının təqib, qırğın, müharibə təhlükəsindən qaçaraq qonşu dövlətlərə kütləvi axını, qaçqın problemləri, müharibənin özü ilə gətirdiyi iqtisadi problemlər, vahid hakimiyyətin yoxluğu şəraitində getdikcə dərinləşən qeyri-sabit şəraitin hökm sürməsi, eləcə də daxili etnik münaqişələrin dövlətlərarası müharibələrə gətirib çıxarmasını xüsusilə qeyd etmək olar.

## ƏDƏBİYYAT


1. Амелин В.Н. Социалоия политики. М.: Моск. Ун-т, 1992
2. Дмитриев А.В., Кудряцев В.Н. Введение в общую теорию конфликтов. Ч. 1. М., 1993.
3. Marshall, Monty G., Gurr, Ted Robert, (2003), Peace and Conflict 2003: A Global. Survey of Armed Conflicts, Self-Determination Movements, and Democracy, CIDCM,. University of Maryland, February 2003, p. 12-16.
4. Həmidov S. Yaxın Şərqdə siyasi çevrilişlər və İran // Strateji Təhlil, sayı 3, Noyabr 2011, s. 45-61.
5. Joane N. `Ethnic Nationalism: Politics, Ideology, and the World Order`, International Journal of Comparative Sociology, no.34, March 1993, p.103-112.
6. James R., Juliet K. Global Politics. New York: Houghton Mifflin Company, 2008.
7. Коротаев А.В., Зинкина Ю.В. Египетская революция 2011 года. Структурно- демографический анализ // Азия и Африка сегодня, 2011 №6, с.10-16.
8. Гусейнов А. Понятия насилия и ненасилия // Вопросы философии, 1994, № 6, 36-45.
9. Галкин А.А. Общественная стабильность: некоторые теоретические подходы. МЭиМО, 2006, №9, с.57-58.

10. Rosen B.R., Ross A.L. Competing Vision for U.S. Grand Strategy // International Security. 1996/1997, Vol.21.No 3 p.5-53.
11. Страны мира. авт.-сост. Ч.М.Адамчик. Минск: Харвест, 2010.
12. События в Северной Африке и на Ближнем Востоке: причины и следствия // Мировая экономика и международные отношения, 2011 №7, с. 11-26.
13. События в Северной Африке и на Ближнем Востоке: причины и следствия // Мировая экономика и международные отношения, 2011 №8, с. 52-66.
14. The Military Balance-2012: The annual assessment of global military capabilities and defence economics, p.12-14.
15. Bush talks of first war of 21st century // http://www.theguardian.com/world/2001/sep/14/september11.usa8
16. Васильев А.М. Цунами революций // Азия и Африка сегодня, 2011 №3,стр.2-19.
17. World Bank. World Development Indicators Online. Washington, DC// www.data.worldbank.org/ indicator/
18. World Energy Outlook 2012 // Iraq Energy Outlook, Special Report of International Energy Agency, p. 1-3. 12 November, 2012

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ВНУТРЕННИХ РЕГИОНАЛЬНЫХ ЭТНИЧЕСКИХ КОНФЛИКТОВ НА СОВРЕМЕННОМ ЭТАПЕ

**А.С.МАМЕДОВ**

### РЕЗЮМЕ

В статье сравнительным образом исследуется региональная динамика внутренних этнических конфликтов на современном этапе. Она иллюстрирует, как на современном этапе этнические конфликты являются одним из ведущих факторов на Земном шаре. Они относятся к сложным, изнурительным и трудноразрешимым проблемам. Сравнительное исследование внутренних этнических конфликтов, относящихся к Кавказскому, Балканскому или же Ближневосточному региону показывает, что конфликты такого типа приводят к расшатыванию основ государства. Они преодолевают границы страны, постоянно подстрекают соседних государств и наносит серьезный ущерб региональному миру и безопасности.Сравнительное исследование показывает, что этнические конфликты вышеупомянутых регионов в своем развитом этапе привели к целой серии побочных явлений.

**Ключевые слова:** внутренние этнические конфликты, региональная динамика, современный период, Ближний Восток, Кавказ, Балканы

**COMPARATIVE ANALYSIS OF REGIONAL DYNAMICS OF ETHNIC CONFLICTS IN THE MODERN TIME**

**A.S.MAMMADOV**

**SUMMARY**

The article researches the regionl dynamics of internal ethnic conflicts in the modern period. It is shown that the ethnic conflicts in the world today have become one of the factors leading to instability. They are more complex, confusing, exhausting and more difficult to solve. A comparative study of ethnic conflicts on the Caucasus, the Balkans, as well as Middle East shows that, first of all, such conflicts lead to weakening of state. Tensions at the borders of a country are a threat for neighboring countries and undermine regional peace and security. Comparative studies show that the ethnic conflicts in the mentioned regions paved a way for the development of a series of consequences. Among these persecution, slaughter mass flow of citizens to neighboring countries to escape the threat of war as well as refugee problems, economic problems brought about by war must be emphasized.

**Keywords:** internal ethnic conflict, regional dynamics in modern era, the Middle East, the Caucasus, the Balkan